DELTA
TELECOM LTD

# "Delta Telekom LTD" MMM

## 31 dekabr 2024-cü il tarixində bitən il üzrə

## Maliyyə Hesabatları
## və Müstəqil Auditorun Hesabatı




Davud Mamedov
Accounting, Financial Advisory

"Delta Telekom LTD" MMM
31 dekabr 2024-cü il tarixində bitən il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat
(min Azərbaycan manatı ilə)

| | Qeyd | 2024 | 2023 |
|---|---|---|---|
| Satış gəliri | 4 | 82,920 | 89,731 |
| **CƏMİ GƏLİRLƏR** | | **82,920** | **89,731** |
| Trafik xidmətləri | 5 | (19,099) | (25,821) |
| İşçi heyəti | | (9,240) | (6,766) |
| Amortizasiya | 13 | (9,232) | (8,739) |
| Digər əməliyyat xərcləri | 6 | (3,568) | (7,200) |
| **CƏMİ ƏMƏLİYYAT XƏRCLƏRİ** | | **(41,139)** | **(48,526)** |
| **XALİS ƏMƏLİYYAT MƏNFƏƏTİ** | | **41,781** | **41,205** |
| Maliyyə gəliri | | 34 | 28 |
| **VERGİDƏN ƏVVƏLKİ MƏNFƏƏT** | | **41,815** | **41,233** |
| Mənfəət vergisi | 7 | (8,037) | (7,616) |
| **XALİS MƏNFƏƏT** | | **33,778** | **33,617** |
| **DİGƏR MƏCMU GƏLİR** | | **-** | **-** |
| **CƏMİ MƏCMU GƏLİR** | | **33,778** | **33,617** |

Rəhbərlik adından:

Ramazan Vəliyev
Baş Direktor

Leyla Bəhrəmova
Maliyyə Direktoru

AZƏRBAYCAN RESPUBLİKASI BAKI ŞƏHƏRİ • DELTA TELEKOM LTD • delta telecom • DELTA TELECOM LTD • AZERBAIJAN REPUBLIC BAKU CITY

"Delta Telekom LTD" MMM
31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabat
(min Azərbaycan manatı ilə)

| | Qeyd | 31 dekabr 2024 | 31 dekabr 2023 |
|---|---|---|---|
| Pul və pul ekvivalentləri | 8 | 57,355 | 48,965 |
| Debitor borcları | 9 | 83,143 | 58,380 |
| Verilmiş avanslar | 10 | 38,133 | 29,250 |
| Mal-materiallar | 11 | 5,566 | 7,172 |
| Digər aktivlər | 12 | 29,679 | 13,523 |
| **CƏMİ CARİ AKTİVLƏR** | | **213,876** | **157,290** |
| Torpaq, tikili və avadanlıq | 13 | 38,077 | 24,335 |
| İnvestisiyalar | | 363 | 128 |
| Qeyri-maddi aktivlər | | 38 | 33 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **38,478** | **24,496** |
| **CƏMİ AKTİVLƏR** | | **252,354** | **181,786** |
| Alınmış avanslar | 14 | 11,902 | 806 |
| Kreditor borcları | 15 | 71,681 | 32,902 |
| Digər öhdəliklər | 16 | 10,763 | 8,059 |
| **CƏMİ CARİ ÖHDƏLİKLƏR** | | **94,346** | **41,767** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **94,346** | **41,767** |
| Nizamnamə kapitalı | | 27 | 27 |
| Bölüşdürülməmiş mənfəət | | 157,981 | 139,992 |
| **CƏMİ KAPİTAL** | | **158,008** | **140,019** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **252,354** | **181,786** |

Rəhbərlik adından:

Ramazan Vəliyev
Baş Direktor

Leyla Bəhrəmova
Maliyyə Direktoru

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | CƏMİ |
|---|---|---|---|
| **31 DEKABR 2022-Cİ İL TARİXİNƏ QALIQ** | **27** | **139,708** | **139,735** |
| Dividendlər | - | (33,333) | (33,333) |
| İl üzrə mənfəət | - | 33,617 | 33,617 |
| **31 DEKABR 2023-CÜ İL TARİXİNƏ QALIQ** | **27** | **139,992** | **140,019** |
| Dividendlər | - | (15,789) | (15,789) |
| İl üzrə mənfəət | - | 33,778 | 33,778 |
| **31 DEKABR 2024-CÜ İL TARİXİNƏ QALIQ** | **27** | **157,981** | **158,008** |

Rəhbərlik adından:

Ramazan Vəliyev
Baş Direktor

Leyla Bəhrəmova
Maliyyə Direktoru

"Delta Telekom LTD" MMM
31 dekabr 2024-cü il tarixində bitən il üzrə pul hərəkətləri haqqında hesabat
(min Azərbaycan manatı ilə)

| | Qeyd | 2024 | 2023 |
|---|---|---|---|
| Müştərilərdən mədaxil | | 81,278 | 91,537 |
| Təchizatçılara ödənişlər | | (22,657) | (41,507) |
| İşçilərə ödənişlər | | (9,205) | (8,412) |
| Dövlət büdcəsinə ödənişlər | | (18,047) | (26,394) |
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ XALİS PUL HƏRƏKƏTİ** | | **31,369** | **15,224** |
| Torpaq, tikili və avadanlığın alışı | | (22,974) | (23,891) |
| Qeyri-maddi aktivlərin alışı | | (5) | (19) |
| **İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ XALİS PUL HƏRƏKƏTİ** | | **(22,979)** | **(23,910)** |
| **PUL VƏ PUL EKVİVALENTLƏRİNDƏ XALİS DƏYİŞİKLİK** | | **8,390** | **(8,686)** |
| **DÖVRÜN ƏVVƏLİNƏ PUL VƏ PUL EKVİVALENTLƏRİ** | **8** | **48,965** | **57,651** |
| **DÖVRÜN SONUNA PUL VƏ PUL EKVİVALENTLƏRİ** | **8** | **57,355** | **48,965** |

Rəhbərlik adından:

Ramazan Vəliyev
Baş Direktor

Leyla Bəhrəmova
Maliyyə Direktoru

## Mündəricat


Müstəqil auditorun hesabatı ........ 3

Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat ........ 5

Maliyyə vəziyyəti haqqında hesabat ........ 6

Kapitalda dəyişikliklər haqqında hesabat ........ 7

Pul hərəkətləri haqqında hesabat ........ 8

1. Giriş ........ 9
2. Uçot siyasətləri ........ 9
3. Mühüm mühakimələr və təxminlər ........ 19
4. Satış gəliri ........ 20
5. Trafik xidmətləri ........ 21
6. Digər əməliyyat xərcləri ........ 21
7. Mənfəət vergisi ........ 22
8. Pul və pul ekvivalentləri ........ 22
9. Debitor borcları ........ 23
10. Verilmiş avanslar ........ 23
11. Mal-materiallar ........ 23
12. Digər aktivlər ........ 24
13. Torpaq, tikili və avadanlıq ........ 25
14. Alınmış avanslar ........ 26
15. Kreditor borcları ........ 26
16. Digər öhdəliklər ........ 26
17. Təəhhüdlər və şərti öhdəliklər ........ 26
18. Maliyyə risklərinin idarə edilməsi ........ 28

+994 12 404 8548
mail@davudmamedov.com
AZ1065, J.Jabbarlı 44, Caspian Plaza, 16-th floor

# Müstəqil auditorun hesabatı

"Delta Telekom LTD" MMM-in səhmdarlarına və rəhbərliyinə

## Rəy

Biz "Delta Telekom LTD" MMM-in (bundan sonra "Şirkət") 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə bitən il üzrə mənfəət və ya zərər və digər ümumi gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu siyasətləri daxil olmaqla qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, əlavə olunmuş maliyyə hesabatları 31 dekabr 2024-cü il tarixinə Şirkətin maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

## Rəy üçün əsas

Biz auditi Beynəlxalq Audit Standartları ("BAS") əsasında aparmışıq. Bizim həmin standartlar üzrə öhdəliklərimiz hesabatımızın "Auditorun maliyyə hesabatlarının auditi üzrə məsuliyyəti" bölməsində təsvir olunur. Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar mühasiblərin etika məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları daxil olmaqla) ("MBESŞ Məcəlləsi") uyğun olaraq biz Şirkətdən müstəqillik və MBESŞ Məcəlləsinə uyğun olaraq etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu rəyin bildirilməsi üçün yetərli və uyğun əsası təmin edir.

**Rəhbərliyin və idarəetmə səlahiyyətləri olan şəxslərin maliyyə hesabatlarına dair məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının MHBS-na uyğun hazırlanması və düzgün təqdim edilməsi, həmçinin saxtakarlıq və ya səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanması üçün zəruri saydığı daxili nəzarətə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərlik Şirkəti ləğv etmək və ya fəaliyyətini dayandırmaq niyyətində olduğu və ya bunu etməkdən başqa heç bir real alternativi olmadığı hallar istisna olmaqla, Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsizliklə bağlı məsələlərin açıqlanmasına və mühasibat uçotunu fasiləsizlik prinsipi əsasında aparmasına görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri olan şəxslər Şirkətin maliyyə hesabatlılığı prosesinə nəzarət edir.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz bütövlükdə maliyyə hesabatlarında saxtakarlıq və ya səhv nəticəsində yarana biləcək əhəmiyyətli təhriflərin olmamasına dair yetərli əminlik əldə etmək və auditorun hesabatında bu barədə rəy bildirməkdir. Yetərli əminlik əminliyin yüksək dərəcəsini ifadə edir, lakin BAS-a uyğun olaraq aparılmış audit nəticəsində mövcud olan bütün təhriflərin üzə çıxarılmasına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhv nəticəsində yarana bilər və fərdi ya məcmu olaraq istifadəçilərin maliyyə hesabatlarının əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmək ehtimalı olduğu halda əhəmiyyətli sayılır.

Aparılmış audit və onun nəticəsində təqdim edilmiş bu audit hesabatı üzrə məsuliyyət daşıyan auditor Davud Məmmədovdur.

04 dekabr 2025

Bakı, Azərbaycan

# 1. Giriş

"Delta Telekom LTD" MMM (bundan sonra "Şirkət") 06 iyun 2000-ci il tarixində Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq təsis edilmiş məhdud məsuliyyətli cəmiyyətdir. Şirkət dövlət qeydiyyatına 1700164781 VÖEN-i ilə alınmışdır. Şirkətin baş ofisi AZ1012, Bakı şəhəri Yasamal rayonu, Şərifzadə küç., ev 241 ünvanında yerləşir.

Şirkətin əsas fəaliyyəti yerli və xarici internet provayderlərinə, eləcə də iri dövlət və özəl müəssisələrinə internet trafiki xidmətlərinin göstərilməsindən ibarətdir. 31 dekabr 2024-cü il tarixinə Şirkətdə 227 nəfər çalışmışdır (31 dekabr 2023: 214).

# 2. Uçot siyasətləri

***Tərtibatın əsasları***

Şirkətin hazırkı maliyyə hesabatları Beynəlxalq Mühasibatlıq Standartları Şurası ("BMSŞ") tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") əsasında hazırlanmışdır.

Maliyyə hesabatları ilkin dəyər prinsipi əsasında hazırlanmışdır. Başqa qeyd olmazsa maliyyə hesabatlarının bütün məbləğləri min Azərbaycan manatı ilə təqdim edilir.

Rəhbərlik maliyyə hesabatlarını təsdiqləyərkən, Şirkətin yaxın gələcəkdə fəaliyyətini davam etdirmək üçün kifayət qədər resurslara sahib olacağına əsaslı şəkildə inanır. Beləliklə, Şirkət maliyyə hesabatlarını onun fəaliyyətini fasiləsiz olaraq davam etdirəcəyi əsasında hazırlamışdır.

***Xarici valyutalar***

Şirkətin maliyyə hesabatları onun funksional valyutası olan Azərbaycan manatı ilə təqdim olunur.

Xarici valyuta ilə əməliyyatlar ilkin olaraq əməliyyatın tanındığı tarixdə müvafiq funksional valyutanın həmin tarixə olan məzənnəsi ilə uçota alınır. Xarici valyutada olan pul aktivləri və öhdəlikləri funksional valyutanın hesabat tarixinə olan məzənnəsi ilə əks etdirilir.

| Valyuta | 31 dekabr 2024 | 31 dekabr 2023 |
|---|---|---|
| EUR | 1.7724 | 1.8766 |
| SEK | 0.1545 | 0.1688 |
| USD | 1.7000 | 1.7000 |
| RUB | 0.0163 | 0.0188 |
| GBP | 2.1382 | 2.1643 |

Bu cür əməliyyatların aparılmasından və pul maddələrinin yenidən qiymətləndirilməsindən yaranan bütün gəlir və xərclər xalis şəkildə mənfəət və ya zərərdə tanınır. İlkin dəyəri xarici valyutada olan qeyri-pul maddələri yenidən qiymətləndirilmir. Borclarla bağlı xarici valyuta məzənnəsindən yaranan gəlir və xərclər mənfəət və ya zərər haqqında hesabatda maliyyə xərcləri olaraq təqdim edilir.

***Cari və ya uzunmüddətli kateqoriyaya təsnifat***

Şirkət aktivləri və öhdəlikləri maliyyə vəziyyəti haqqında hesabatda cari/uzunmüddətli təsnifatına əsasən təqdim edir. Aşağıdakı hallarda aktivlər cari aktiv kimi təsnif edilir:

- Normal əməliyyat dövrü çərçivəsində satılması və ya istifadə edilməsi gözlənildikdə;
- Əsasən ticarət məqsədləri üçün saxlandıqda;
- Hesabat tarixindən sonra on iki ay müddətində realizasiya ediləcəyi ehtimal olunduqda; və ya
- Hesabat tarixindən sonra ən az on iki ay müddətində mübadiləsinə və ya istifadəsinə məhdudiyyət qoyulmayan pul və pul ekvivalentləri olduqda.

Bütün digər aktivlər uzunmüddətli aktivlər kimi təsnif edilir.

Öhdəlik aşağıdakı hallarda cari hesab olunur:

- Ödənilməsi adi əməliyyat dövründə nəzərdə tutulduqda;
- Əsasən ticarət məqsədləri üçün saxlandıqda;
- Hesabat tarixindən etibarən on iki ay ərzində ödənilməli olduqda; və ya
- Öhdəliyin yerinə yetirilməsini hesabat tarixindən ən azı on iki ay uzatmaq kimi şərtsiz hüquqa malik olmadıqda.

Şirkət bütün digər öhdəlikləri uzunmüddətli öhdəliklər kimi təsnif edir.

Təxirə salınmış vergi aktivləri və öhdəlikləri uzunmüddətli aktivlər və öhdəliklər kimi təsnif edilir.

***Satış gəliri***

Malların satışı

Şirkət həm topdansatış bazarına, həm də pərakəndə satış məntəqələri vasitəsilə birbaşa müştərilərə mal satır. Topdansatış bazarında malların satışları, malların üzərindən nəzarətin ötürülməsi, yəni malı alıcının müəyyən etdiyi yerə göndərilməsi (çatdırılması) anında gəlir kimi tanınır. Çatdırılmadan sonra müştəri mallara tam nəzarət etmək hüququna malik olur, mallar üzərində əsas məsuliyyəti daşıyır və malların yararsız hala gəlməsi və ya itirilməsi risklərini öz üzərinə götürür. Debitor borcu Şirkət tərəfindən mallar müştəriyə təhvil verildiyi zaman tanınır, çünki bu, ödəniş almaq hüququnu və müəyyən müddət keçdikdən sonra qeyd-şərtsiz edir.

Pərakəndə satışlardan əldə edilən gəlir, müştərinin satış məntəqəsində malları təhvil aldığı anda tanınır. Satış dəyərinin ödənilməsi malların təhvil alındığı anda müştəri tərəfindən dərhal həyata keçirilir.

Şirkət müqavilədə satış qiymətinin bölüşdürülməsini tələb edən ayrıca icra öhdəliklərinin olub-olmadığını nəzərdən keçirir (məs., zəmanətlər, müştəri bonusları). Malların satışı üzrə əməliyyat dəyərini müəyyən edərkən Şirkət maliyyə komponentinin mövcudluğunun, nağdsız ödənişin və müştəriyə ödənilməli olan kompensasiyanın (əgər varsa) təsirlərini nəzərə alır.

Əgər müqavilənin dəyəri dəyişkən qiymətə bağlıdırsa, Şirkət malların müştəriyə təhvil verilməsi nəticəsində hansı məbləğə malik olacağını təxmin edir. Dəyişkən qiymət müqavilənin bağlandığı zaman təxmin edilir və dəyişən məbləğ ilə əlaqədar qeyri-müəyyənlik sonrakı dövrlərdə aradan qalxanda, tanınmış məcmu gəlir məbləğində gəlirin əhəmiyyətli dərəcədə dəyişməsinin baş verməməsi ehtimalı yüksək olana qədər sabit qalır.

Şirkət adətən qanunun tələbi ilə malların satışı zamanı mövcud olan qüsurların ümumi təmiri üçün zəmanət verir. Bu təminat tipli zəmanətlər ehtiyatlar şəklində uçota alınır. Malların və əlaqəli xidmətlərin birgə satışı üzrə müqavilələr (məs., quraşdırma) iki icra öhdəliyindən ibarətdir, çünki mallar və əlaqəli xidmətlər həm müstəqil olaraq satılır, həm də müqavilə kontekstində fərqlənirlər. Müvafiq olaraq, Şirkət müqavilə dəyərini malların və əlaqəli xidmətlərin nisbi müstəqil satış qiymətləri əsasında bölüşdürür.

Xidmətlər

Şirkət müştərilərinə müxtəlif ixtisaslaşdırılmış xidmətlər təqdim edir. Bu cür xidmətlər zamanla yerinə yetirilən icra öhdəliyi kimi tanınır. Şirkət xidməti başa çatdırmaq üçün ümumi gözlənilən iş saatlarına nisbətdə xərclənmiş iş saatları əsasında gəliri tanıyır.

Göstərilən xidmətlərə görə ödəniş xidmətlər tamamlanana qədər müştəri tərəfindən ödənilmir və buna əsasən təşkilatın dövr üzrə bu günə qədər yerinə yetirilmiş xidmətlərə görə ödəniş almaq hüququnu ifadə edən müqavilə üzrə aktiv kimi tanınır.

***Torpaq, tikili və avadanlıq***

Torpaq, tikili və avadanlıq, yığılmış amortizasiya və varsa, yığılmış dəyərsizləşmə zərərləri çıxılmaqla, ilkin dəyərlə göstərilir. İlkin dəyərə obyektlərin alınması ilə birbaşa əlaqəli olan xərclər daxildir. Sonrakı məsrəflərlə bağlı gələcək iqtisadi səmərələrin Şirkətə daxil olması ehtimalı olduqda və həmin məsrəflərin dəyəri etibarlı şəkildə ölçülə bildikdə, onlar aktivin balans dəyərinə əlavə edilir və ya ayrıca aktiv kimi tanınır. Ayrıca aktiv kimi uçota alınan aktivin hər hansı komponenti əvəz edildikdə onun balans dəyəri silinir. Bütün digər təmir və texniki xidmətlər baş verdikləri hesabat dövründə mənfəət və ya zərərə aid edilir.

Aktivlərin amortizasiyası təxmin edilən aşağıdakı faydalı istismar müddətləri üzrə düz xətt əsasında hesablanır:

| Aktivin kateqoriyası | Faydalı istismar müddəti |
|---|---|
| Digər əsas vəsaitlər | 4 – 7 il |
| Binalar və tikililər | 40 – 50 il |
| Maşın və avadanlıqlar | 6 – 12 il |
| Nəqliyyat vasitələri | 4 – 10 il |

Təxmin edilən faydalı istismar müddətləri, son qalıq dəyərləri və amortizasiya metodu hər bir hesabat dövrünün sonunda nəzərdən keçirilir və təxminlərdə hər hansı dəyişikliklərin təsiri gələcəkdə nəzərə alınır.

Torpaq, tikili və avadanlıq obyekti xaric edildikdə və ya aktivin davamlı istifadəsindən gələcək iqtisadi səmərə gözlənilmədikdə silinir. Aktivin satılması və ya silinməsi nəticəsində yaranan gəlir və ya zərər satışdan əldə olunan gəlirlə aktivin balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və mənfəət və ya zərərdə tanınır.

***Qeyri-maddi aktivlər***

Ayrıca alınmış qeyri-maddi aktivlər ilkin dəyərlə tanınır. İlkin tanındıqdan sonra qeyri-maddi aktivlər hər hansı yığılmış amortizasiya və yığılmış dəyərsizləşmə zərərləri çıxılmaqla ilkin dəyərlə uçota alınır. Kapitallaşdırılmış təcrübə-konstruktor xərcləri istisna olmaqla, daxildə yaradılmış qeyri-maddi aktivlər kapitallaşdırılmır və müvafiq xərclər çəkildiyi dövrdə mənfəət və ya zərərdə əks etdirilir.

Qeyri-maddi aktivlərin faydalı istismar müddətləri məhdud və ya qeyri-müəyyən kimi olur. Məhdud istismar müddəti olan qeyri-maddi aktivlər həmin müddət ərzində amortizasiya edilir və aktivin dəyərsizləşə biləcəyinə dair əlamətlər olduqda dəyərsizləşmə üçün yoxlanılır. Məhdud faydalı istismar müddəti olan qeyri-maddi aktiv üçün amortizasiya müddəti və amortizasiya metodu ən azı hər hesabat dövrünün sonunda nəzərdən keçirilir. Gözlənilən faydalı istismar müddətində və ya aktivdə təcəssüm olunan gələcək iqtisadi səmərələrin gözlənilən istehlak modelində dəyişikliklər müvafiq hallarda amortizasiya müddətinə və ya metoduna dəyişiklik etmək üçün nəzərdə tutulur və uçot təxminlərində dəyişikliklər kimi nəzərə alınır. Məhdud istismar müddəti olan qeyri-maddi aktivlər üzrə amortizasiya xərcləri mənfəət və ya zərər haqqında hesabatda tanınır.

Qeyri-müəyyən faydalı istismar müddəti olan qeyri-maddi aktivlər amortizasiya edilmir, lakin hər il fərdi və ya pul vəsaitlərini yaradan vahidlər səviyyəsində dəyərsizləşmə üçün yoxlanılır. Qeyri-müəyyən istismar müddətləri qeyri-müəyyənliyin qalmasına əmin olmaq üçün hər il nəzərdən keçirilir. Əminlik alınmadığı halda, faydalı istismar müddətinin qeyri-müəyyən müddətdən məhdud müddətə dəyişməsi gələcək dövrlərə təsir etməklə həyata keçirilir.

Qeyri-maddi aktiv xaric edildikdə (yəni, alıcının nəzarəti əldə etdiyi tarixdə) və ya onun istifadəsindən gələcək iqtisadi səmərə gözlənilmədikdə balansdan silinir. Aktivin silinməsi zamanı yaranan hər hansı gəlir və ya zərər (aktivin xaric edilməsindən əldə edilən xalis gəlirlə balans dəyəri arasında fərq) mənfəət və ya zərər haqqında hesabatda tanınır.

***Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi***

Şirkət hər hesabat tarixində aktivin dəyərsizləşməsinə dair əlamətin olub-olmamasını nəzərdən keçirir. Hər hansı əlamət mövcud olduqda və ya aktiv üçün illik dəyərsizləşmə testi tələb olunduqda, Şirkət aktivin bərpa edilə bilən dəyərini hesablayır. Aktivin bərpa edilə bilən dəyəri onun və ya gəlir yaradan vahidin (GYV) xaric edilmə xərcləri çıxılmaqla ədalətli dəyəri ilə istifadə dəyəri arasında daha yüksək olanıdır. Bərpa edilə bilən məbləğ hər fərdi aktiv üçün müəyyən edilir o şərtlə ki, o digər aktivlərdən və ya aktiv qruplarından əhəmiyyətli dərəcədə asılı olmayan gəlirlər yaradır. Aktivin və ya GYV-nin balans dəyəri onun bərpa edilə bilən dəyərindən artıq olduqda, aktiv dəyərsizləşmiş hesab edilir və bərpa edilə bilən dəyərə qədər azaldılır.

İstifadə dəyərinin hesablanmasında, proqnozlaşdırılan gələcək pul hərəkəti vaxt dəyərinin və aktivə xas olan riskləri ehtiva edən vergidən əvvəlki diskont dərəcəsindən

istifadə etməklə diskontlaşdırılır. Satış xərcləri çıxılmaqla ədalətli dəyərin müəyyən edilməsində son bazar əməliyyatları nəzərə alınır. Bazar üzrə kifayət qədər məlumatların mövcud olmadığı halda, müvafiq qiymətləndirmə modelindən istifadə edilir. Bu hesablamalar qiymətləndirmə əmsalları, açıq bazarda ticarət olunan səhm qiymətləri və ya digər mövcud ədalətli dəyər göstəricilərin əsasında aparılır.

Şirkət dəyərsizləşməni hər bir GYV üçün ayrıca hazırlanmış ən son büdcələr və proqnozlar əsasında hesablayır. Bu büdcələr və proqnozlar adətən beş illik dövrü əhatə edir. Uzunmüddətli artım tempi hesablanır və beşinci ildən sonra gələcək pul hərəkətini proqnozlaşdırmaq üçün tətbiq edilir.

Davam edən əməliyyatlar üzrə dəyərsizləşmə zərərləri, əvvəllər DMG-də yenidən qiymətləndirmə ilə yenidən qiymətləndirilmiş əmlaklar istisna olmaqla, mənfəət və ya zərər haqqında hesabatda tanınır. Bu cür əmlaklar üçün dəyərsizləşmə əvvəlki hər hansı yenidən qiymətləndirmənin məbləğinə qədər DMG-də tanınır.

Qudvil istisna olmaqla aktivlər üçün, əvvəllər tanınmış dəyərsizləşmə zərərlərinin artıq mövcud olmadığı və ya azaldığına dair əlamətin olub-olmadığını müəyyən etmək üçün hər hesabat tarixində qiymətləndirmə aparılır. Belə bir əlamət mövcud olarsa, Şirkət aktivin və ya GYV-in bərpa edilə bilən məbləğini hesablayır. Əvvəllər tanınmış dəyərsizləşmə zərəri yalnız sonuncu dəyərsizləşmə zərərinin tanınmasından sonra aktivin bərpa edilə bilən dəyərini müəyyən etmək üçün istifadə edilən fərziyyələrdə dəyişiklik olduqda geri qaytarılır. Geri qaytarılma aktivin balans dəyəri onun bərpa edilə bilən dəyərini və ya əvvəlki illərdə aktiv üçün dəyərsizləşmə zərəri tanınmasaydı, amortizasiya çıxılmaqla müəyyən ediləcək balans dəyərini keçməmək şərti ilə məhdudlaşdırılır. Aktiv yenidən qiymətləndirilmiş dəyərlə uçota alınmadıqda, bu cür geri qaytarılma mənfəət və ya zərər haqqında hesabatda tanınır və bu halda, o, yenidən qiymətləndirmə artımı kimi nəzərə alınır.

### *İcarə*

Qısamüddətli icarə və aşağı dəyərli aktivlərin icarəsi

Şirkət müxtəlif aktivlərin qısamüddətli icarələrinə müvafiq azadolmanı tətbiq edir (yəni, icarə müddəti başlama tarixindən etibarən 12 ay və ya daha az olan və satınalma seçimini ehtiva etməyən icarələr). O, həmçinin aşağı dəyərli hesab edilən aktivlərin icarəsinə də müvafiq azadolmanı tətbiq edir. Qısamüddətli icarələr və aşağı dəyərli aktivlərin icarəsi üzrə icarə ödənişləri icarə müddəti ərzində düz xətt metodu əsasında xərc kimi tanınır.

***Pul və pul ekvivalentləri***

Pul və pul ekvivalentləri banklardakı və kassadakı nağd pul vəsaitləri, banklardakı və digər maliyyə institutlarındakı tələbli əmanətlər və üç ay və ya daha az müddətə qısamüddətli yüksək likvidli, asanlıqla məlum məbləğdə pul vəsaitinə çevrilə bilən və dəyər dəyişikliyi riskinə məruz qalmayan qısamüddətli investisiyalardan ibarətdir. Pul və pul ekvivalentləri investisiya və ya digər məqsədlər üçün deyil, daha çox qısamüddətli pul ehtiyaclarını qarşılamaq məqsədi ilə saxlanılır.

***Debitor borcları***

Debitor borcları adi iş prosesində satılan mallara və ya göstərilən xidmətlərə görə müştərilərdən alınacaq məbləğlərdir. Onların müddəti adətən bir aya qədər olur və buna görə də hamısı cari aktiv kimi təsnif edilir.

Debitor borcları o zaman tanınır ki, Şirkətin ödəniş almaq üçün qeyd-şərtsiz hüququ var və ödənişin alınması yalnız vaxtın keçməsi ilə şərtlənir. Əhəmiyyətli maliyyə komponenti olmayan debitor borcları ilkin olaraq satış dəyəri ilə ölçülür. Əhəmiyyətli maliyyə komponentini və digər debitor borclarını ehtiva edən debitor borcları ilkin olaraq ədalətli dəyər üstəgəl əməliyyat xərcləri məbləği ilə ölçülür. Bütün debitor borcları sonradan amortizasiya olunmuş ilkin dəyərlə əks etdirilir.

***Maliyyə aktivlərinin dəyərsizləşməsi***

Debitor borcları üçün Şirkət gözlənilən kredit itkilərinin (GKİ) hesablanmasında sadələşdirilmiş yanaşma tətbiq edir. Buna görə də, Şirkət kredit riskindəki dəyişiklikləri izləmir, əksinə, hər hesabat tarixində ömürlük GKİ-lərə əsaslanan zərər ehtiyatını tanıyır.

Şirkət öz tarixi kredit itkisi statistikasına əsaslanan, borclulara və iqtisadi mühitə xas olan perspektiv amillərə uyğunlaşdırılmış ehtiyat matrisi yaratmışdır. Müqavilə üzrə gecikmə 90 günü keçdikdə Şirkət maliyyə aktivini defolt hesab edir. Bununla belə, müəyyən hallarda, Şirkət tərəfindən saxlanılan hər hansı girovları nəzərə almadan daxili və ya xarici məlumatlar müqavilə məbləğlərini tam şəkildə ala bilməyəcəyini göstərdikdə Şirkət maliyyə aktivini defolt hesab edə bilər.

Borclunun ciddi maliyyə çətinliyində olduğunu göstərən məlumatlar olduqda və real ödəniş perspektivi olmadıqda Şirkət maliyyə aktivini silir, məs., borclu ləğv edildikdə və ya iflas proseduruna başlandıqda. Müvafiq hallarda hüquqi məsləhətlər nəzərə alınmaqla, silinmiş maliyyə aktivləri hələ də Şirkətin bərpa prosedurları çərçivəsində icra tədbirlərinə məruz qala bilər. Bərpa edilmiş hər hansı ödənişlər mənfəət və ya zərərdə tanınır.

***Mal-materiallar***

Xammal və anbar qalıqları, bitməmiş istehsalat və hazır məhsul ilkin dəyərdən və xalis satış dəyərindən aşağı olanı ilə uçota alınır. İlkin dəyərə birbaşa materiallar və müvafiq hallarda birbaşa əmək məsrəfləri və mal-materialların hazırkı yerləşdiyi yerə və vəziyyətə gətirilməsi üçün çəkilmiş qaimə məsrəfləri daxildir. Alınmış mal-materialların ilkin dəyəri güzəştlər və endirimlər çıxıldıqdan sonra müəyyən edilir. Dəyər orta çəkili maya dəyəri metodundan istifadə etməklə hesablanır.

Xalis satış dəyəri mal-materialların emal məsrəfləri və satış xərcləri çıxılmaqla, adi iş prosesində təxmin edilən satış qiymətidir.

***Kreditor borcları***

Kreditor borcları maliyyə ilinin sonuna qədər Şirkətə təqdim edilmiş və ödənilməmiş mal və xidmətlər üzrə öhdəlikləri əks etdirir. Ödəniş müddəti hesabat dövründən sonra 12 ayı keçmədikdə, kreditor borcları cari öhdəliklər kimi təsnif edilir. Onlar ilkin olaraq ədalətli dəyərlə tanınır və sonra effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərlə ölçülür.

***Kapital qoyuluşu və dividendlər***

Nizamnamə kapitalı kapital elementi kimi təsnif edilir.

Şirkət dividend öhdəliyini dividendlərin bölüşdürməsi təsdiqlənəndə və bölüşdürmə artıq Şirkətin ixtiyarında olmayanda tanıyır. Mühabirləşən məbləğ birbaşa bölüşdürülməmiş mənfəətdə tanınır.

***Vergilər***

Cari mənfəət vergisi

Cari mənfəət vergisi xərci Şirkətin fəaliyyət göstərdiyi və vergiyə cəlb olunan gəlir əldə etdiyi ölkədə hesabat dövrünün sonunda qüvvədə olan və ya mahiyyətcə qüvvəyə minmiş vergi qanunları əsasında hesablanır. Azərbaycanda fəaliyyət göstərən vergi ödəyicisi kimi Şirkət 20% sabit dərəcə ilə mənfəət vergisinə cəlb edilir. Cari mənfəət vergisi aktivləri və öhdəlikləri vergi orqanlarından geri alınması və ya ödənilməsi gözlənilən məbləğlə ölçülür.

Təxirə salınmış vergi

Təxirə salınmış vergi, hesabat tarixinə aktiv və öhdəliklərin maliyyə uçotundakı qalıqları ilə onların vergi uçotu ilə qalıqları arasındakı müvəqqəti fərqlər üzrə öhdəlik metodundan istifadə etməklə hesablanır. Təxirə salınmış mənfəət vergisi, müəssisələrin

birləşməsi istisna olmaqla, əməliyyat zamanı nə maliyyə nə də vergi uçotuna təsir etməyən və müvafiq müvəqqəti fərqlərə səbəb olmayan əməliyyatlar üçün uçota alınmır.

Təxirə salınmış vergi aktivləri bütün çıxıla bilən müvəqqəti fərqlər və istifadə olunmamış keçmiş illərin vergi zərərləri üçün tanınır. Təxirə salınmış vergi aktivləri, aşağıdakılar istisna olmaqla, çıxıl bilən müvəqqəti fərqlərin və istifadə olunmamış keçmiş illərin vergi zərərlərinin sonrakı dövrlərdə kifayət qədər mənfəətin olacağı ehtimal edilən dərəcədə tanınır:

- Təxirə salınmış mənfəət vergisi, müəssisələrin birləşməsi istisna olmaqla, əməliyyat zamanı nə maliyyə nə də vergi uçotuna təsir etməyən və müvafiq müvəqqəti fərqlərə səbəb olmayan əməliyyatlardan yarananda;
- Törəmə, asılı və birgə müəssisələrdəki iştirak paylarına qoyulan investisiyalarla bağlı çıxılan müvəqqəti fərqlərə gəldikdə, təxirə salınmış vergi aktivləri yalnız müvəqqəti fərqlərin geri qayıdacağı və vergiyə cəlb olunan mənfəətin kifayət qədər olacağı ehtimal edilən dərəcədə tanınır.

Təxirə salınmış vergi aktivlərinin balans dəyəri hər hesabat tarixində nəzərdən keçirilir və təxirə salınmış vergi aktivinin tam və ya bir hissəsinin istifadəsinə imkan verəcək kifayət qədər vergiyə cəlb olunan mənfəətin olması ehtimalı artıq olmadığı dərəcədə azaldılır. Tanınmamış təxirə salınmış vergi aktivləri hər hesabat tarixində yenidən qiymətləndirilir və gələcək vergiyə cəlb olunan mənfəətin təxirə salınmış vergi aktivinin bərpasına imkan verəcəyi ehtimal olunan dərəcədə tanınır. Təxirə salınmış vergi aktivlərinin bərpa olunma qabiliyyətini qiymətləndirərkən Şirkət maliyyə hesabatlarında və digər idarəetmə hesabatlarında istifadə edilən eyni proqnoz fərziyyələrinə əsaslanır.

Təxirə salınmış vergi aktivləri və öhdəlikləri hesabat tarixində qüvvəyə olan və ya mahiyyətcə qüvvəyə minmiş vergi dərəcələri (və vergi qanunları) əsasında aktivin alınacağı və ya öhdəliyin ödənildiyi ildə tətbiq edilməsi gözlənilən vergi dərəcələri ilə ölçülür.

Cari və təxirə salınmış vergi, digər məcmu gəlirdə və ya bilavasitə kapitalda tanınan maddələrə aid olduğu hallar istisna olmaqla, mənfəət və ya zərərdə tanınır. Bu halda vergi müvafiq olaraq digər məcmu gəlirdə və ya birbaşa kapitalda tanınır.

Təxirə salınmış vergi aktivləri və öhdəlikləri, cari vergi aktivləri və öhdəliklərini əvəzləşdirmək üçün qanuni hüquqa malik olduqda və təxirə salınmış vergi qalıqları eyni vergi orqanına aid olduqda qarşılıqlı əvəzləşdirilir. Cari vergi aktivləri və vergi öhdəlikləri o zaman əvəzləşdirilir ki, müəssisə qanuni olaraq əvəzləşdirmək hüquqa

malikdir və xalis əsasda hesablaşmalar aparmaq, ya da aktivi və öhdəliyi eyni vaxtda bağlamaq niyyətindədir.

Əlavə dəyər vergisi (ƏDV)

Əlavə dəyər vergisi (ƏDV) Azərbaycanda malların satışı, xidmətlərin göstərilməsi və malların idxalı zamanı tutulur. ƏDV-nin standart dərəcəsi 18% təşkil edir.

Bütün gəlirlər, xərclər və aktivlər aşağıdakılar istisna olmaqla, tətbiq olunan ƏDV çıxıldıqdan sonra uçota alınır:

- aktivlərin və ya xidmətlərin alınması zamanı ödənilmiş ƏDV-nin vergi orqanlarından geri qaytarılmayacağı hallarda həmin aktivin alış dəyərinin bir hissəsi və ya xərc kimi tanınır;
- ƏDV daxil məbləğdə uçota alınmış debitor borcları və öhdəliklər.

Vergi orqanlarından alınmalı və ya ödənilməli olan ƏDV-nin xalis məbləği maliyyə vəziyyəti haqqında hesabatda Şirkətin cari aktivlərin və ya öhdəliklərin bir hissəsi kimi göstərilir.

***İşçilərə ödənişlər***

Əmək haqqı, illik məzuniyyət və ya xəstəlik məzuniyyəti ilə bağlı işçilərə hesablanan müavinətlər üzrə öhdəlik müvafiq xidmətin göstərildiyi dövrdə ödənilməsi gözlənilən müavinətin diskontlaşdırılmamış məbləğində tanınır.

Azərbaycan Respublikasının müvafiq qanunlarına əsasən, Şirkət işçilərin əmək haqqı, işsizlikdən sığorta ödənişləri və icbari tibbi sığorta üzrə məcburi sosial sığorta haqlarını ödəməyə borcludur. Şirkətin qanunla müəyyən edilmiş sosial sığorta sistemi üzrə ödənişlərdən kənar pensiya və ya oxşar müavinət ödənişləri etmək kimi hüquqi və ya konstruktiv öhdəliyi yoxdur.

***Ehtiyatlar***

Ehtiyatlar o zaman tanınır ki, Şirkətin keçmiş hadisə nəticəsində cari öhdəliyi (hüquqi və ya konstruktiv) olduqda və Şirkətdən həmin öhdəliyi yerinə yetirmək tələb oluna bilər və öhdəliyin məbləği etibarlı şəkildə hesablana bilər.

Ehtiyat kimi tanınan məbləğ, öhdəliyi əhatə edən risklər və qeyri-müəyyənliklər nəzərə alınmaqla, hesabat tarixinə cari öhdəliyin ödənilməsi üçün tələb olunan məbləğin ən düzgün təxminidir. Ehtiyat hazırkı öhdəliyi yerinə yetirmək üçün təxmin edilən pul hərəkətindən istifadə etməklə hesablandıqda, onun balans dəyəri həmin pul hərəkətinin diskontlaşdırılmış dəyəridir (pulun zaman dəyərinin təsiri əhəmiyyətli olduqda).

Ehtiyatın ödənilməsi üçün tələb olunan məbləğin bir hissəsinin və ya tamının üçüncü tərəfdən bərpa olunacağı gözlənildikdə, kompensasiyanın alınacağına faktiki olaraq əmin olduqda və onun məbləği etibarlı şəkildə ölçülə bildikdə, debitor borc aktiv kimi tanınır.

***Yeni və dəyişmiş standartlar***

Şirkət aşağıdakı standartları və düzəlişləri ilk dəfə 01 yanvar 2024 tarixi ilə başlayan illik hesabat dövrü üçün tətbiq etmişdir:

- Öhdəliklərin cari və ya uzunmüddətli kimi təsnifatı – MUBS 1-ə düzəlişlər;
- Satış və geriyə lizinq zamanı icarə öhdəliyi – MHBS 16-ya düzəlişlər;
- Təchizatçıların maliyyələşdirilməsi ilə bağlı razılaşmalar – MUBS 7 və MHBS 7-yə düzəlişlər.

Yuxarıda sadalanan standartlar və düzəlişlər əvvəlki dövrlərdə tanınmış məbləğlərə hər hansı əhəmiyyətli təsir göstərməmişdir və onların cari və ya gələcək dövrlərə əhəmiyyətli dərəcədə təsir göstərəcəyi gözlənilmir.

# 3. Mühüm mühakimələr və təxminlər

Şirkətin rəhbərliyi maliyyə hesabatlarının hazırlanması üçün mülahizələr, təxminlər və fərziyyələri istifadə edir və bu satış gəlirinin, xərclərin, aktivlərin və öhdəliklərin hesabatda göstərilən məbləğlərinə, habelə əlavə açıqlamalara və şərti öhdəliklərin təsir edir. Bu fərziyyələr və təxminlər üzrə olan qeyri-müəyyənlik gələcək dövrlərdə aktiv və ya öhdəliklərin balans dəyərinə təsir edən əhəmiyyətli düzəlişlər tələb edə bilər. Artıq dərəcədə mühakimə tələb edən sahələrin və istifadə olunmuş təxminlərin və fərziyyələrin səhv çıxması səbəbindən daha çox düzəlişə ehtiyacı ehtimal olunan maddələrin icmalı aşağıdakı kimidir.

***Gözlənilən kredit itkiləri üçün ehtiyat***

Şirkət debitor borcları üzrə GKİ-ləri hesablamaq üçün ehtiyat matrisindən istifadə edir. Ehtiyat dərəcələri oxşar riskləri olan müxtəlif müştəri seqmentlərinin qruplaşdırılması üçün vaxtı keçmiş günlərə əsaslanır (məs., məhsul növü, müştəri növü və reytinqi, coğrafi bölgə və zəmanət növləri).

Ehtiyat matrisi ilkin olaraq Şirkətin tarixi müşahidə edilmiş defolt dərəcələrinə əsaslanır. Şirkət keçmiş kredit itkisi təcrübəsini gələcəyə doğru gözlənilən məlumatlara tənzimləmək üçün matrisinə düzəlişlər verir. Hər hesabat tarixində, tarixən müşahidə edilmiş defolt dərəcələri yenilənir və proqnozlardakı dəyişikliklər təhlil edilir.

Tarixən müşahidə edilmiş defolt dərəcələri, proqnozlaşdırılan iqtisadi şərtlər və GKİ-lər arasında korrelyasiyanın qiymətləndirilməsi əhəmiyyətli bir təxmindir. GKİ-lərin məbləği mövcud şəraitlərdə dəyişikliklərə və proqnozlaşdırılan iqtisadi vəziyyətə həssasdır. Şirkətin tarixi kredit itkisi təcrübəsi və iqtisadi şərtlərin proqnozu gələcəkdə müştərinin faktiki defoltunu ifadə etməyə bilər.

***Torpaq, tikili və avadanlığın faydalı istismar müddətləri***

Torpaq, tikili və avadanlığın son qalıq dəyərləri hər il gələcək bazar şəraiti, aktivlərin qalan istismar müddəti və proqnozlaşdırılan silinmə dəyəri nəzərə alınmaqla nəzərdən keçirilir. Faydalı istismar müddətlərinin qiymətləndirilməsi həm keçmiş statistikaya, həm də gələcək istifadəyə dair gözləntilərə əsaslanır və buna görə də müəyyən dərəcədə mülahizələrin tətbiq edilməsini tələb edir. Amortizasiya dərəcələri rəhbərliyin aktivlərin faydalı istismar müddəti ilə bağlı ən düzgün qiymətləndirməsini əks etdirir.

## 4. Satış gəliri

31 dekabr 2024 və 2023-cü il tarixlərində bitən illər üzrə satış gəlirinin açıqlaması aşağıdakı kimidir:

| | 2024 | 2023 |
|---|---|---|
| İnternet | 47,014 | 40,006 |
| İP/MPLS | 17,618 | 14,777 |
| DWDM Network | 5,136 | 4,635 |
| IMS/TDM/IP Voice | 3,165 | 2,561 |
| SDH Network | 1,818 | 1,941 |
| Optik | 1,321 | 1,161 |
| Peyk Şəbəkəsi | 493 | 434 |
| Digər xidmətlər | 6,355 | 24,216 |
| **CƏMİ SATIŞ GƏLİRİ** | **82,920** | **89,731** |

# 5. Trafik xidmətləri

31 dekabr 2024 və 2023-cü il tarixlərində bitən illər üzrə trafik xidmətlərinin açıqlaması aşağıdakı kimidir:

| | 2024 | 2023 |
|---|---|---|
| İnternet | 7,264 | 7,921 |
| Tranzit kanalları | 6,087 | 5,768 |
| Kənardan alınmış xidmətlər | 2,421 | 9,235 |
| Kabel kanalları | 1,692 | 1,484 |
| Data portları | 875 | 159 |
| Peyk xərcləri | 496 | 991 |
| Səs trafiki | 175 | 148 |
| SDH kanalı | 89 | 115 |
| **CƏMİ TRAFİK XİDMƏTLƏRİ** | **19,099** | **25,821** |

# 6. Digər əməliyyat xərcləri

31 dekabr 2024 və 2023-cü il tarixlərində bitən illər üzrə digər əməliyyat xərclərinin açıqlaması aşağıdakı kimidir:

| | 2024 | 2023 |
|---|---|---|
| Texniki dəstək və təmir | 1,327 | 2,024 |
| Elektrik enerjisi | 531 | 573 |
| Ezamiyyə xərcləri | 372 | 434 |
| Yanacaq | 233 | 165 |
| Marketinq və reklam | 164 | 74 |
| Sığorta | 161 | 184 |
| Bank komissiyaları | 133 | 124 |
| Peşəkar xidmətlər | 80 | 72 |
| Ofis ləvazimatları | 61 | 55 |
| Rabitə xərcləri | 61 | 71 |
| Mühafizə | 56 | 43 |
| Məzənnə fərqləri | 47 | 2,141 |
| Digər xərclər | 342 | 1,240 |
| **CƏMİ DİGƏR ƏMƏLİYYAT XƏRCLƏRİ** | **3,568** | **7,200** |

## 7. Mənfəət vergisi

31 dekabr 2024 və 2023-cü il tarixlərində bitən illər üzrə mənfəət vergisinin açıqlaması aşağıdakı kimidir:

| | **2024** | **2023** |
|---|---|---|
| Cari mənfəət vergisi | 8,037 | 7,616 |
| **CƏMİ MƏNFƏƏT VERGİSİ** | **8,037** | **7,616** |

31 dekabr 2024 və 2023-cü il tarixlərində bitən illər üzrə faktiki mənfəət vergisi xərcinin nəzəri hesablanmış vergi xərci ilə üzləşməsi aşağıdakı kimidir:

| | **2024** | **2023** |
|---|---|---|
| **VERGİDƏN ƏVVƏLKİ MƏNFƏƏT** | **41,815** | **41,233** |
| 20% dərəcəsi ilə mənfəət vergisi xərci | (8,363) | (8,247) |
| Daimi fərqlərin təsiri | 326 | 631 |
| **CƏMİ MƏNFƏƏT VERGİSİ** | **(8,037)** | **(7,616)** |

## 8. Pul və pul ekvivalentləri

31 dekabr 2024 və 2023-cü il tarixlərinə pul və pul ekvivalentlərinin açıqlaması aşağıdakı kimidir:

| | **31 dekabr 2024** | **31 dekabr 2023** |
|---|---|---|
| Xarici valyutada bank hesabları | 29,901 | 18,814 |
| ƏDV depozit hesabı | 11,446 | 3,417 |
| Yerli valyutada bank hesabları | 16,008 | 26,734 |
| **CƏMİ PUL VƏ PUL EKVİVALENTLƏRİ** | **57,355** | **48,965** |

ƏDV depozit hesabı vergi orqanlarında açılmış xüsusi hesabdır. Bu hesabdan yalnız ƏDV və digər vergi ödənişləri həyata keçirilə bilər.

# 9. Debitor borcları

31 dekabr 2024 və 2023-cü il tarixlərinə debitor borclarının açıqlaması aşağıdakı kimidir:

| | 31 dekabr 2024 | 31 dekabr 2023 |
|---|---|---|
| Rabitə və internet provayderləri | 61,356 | 42,389 |
| Dövlət qurumları və müəssisələri | 4,795 | 1,915 |
| Banklar | 677 | 312 |
| Digər hüquqi və fiziki şəxslər | 16,315 | 13,764 |
| **CƏMİ DEBİTOR BORCLARI** | **83,143** | **58,380** |

# 10. Verilmiş avanslar

31 dekabr 2024 və 2023-cü il tarixlərinə verilmiş avansların açıqlaması aşağıdakı kimidir:

| | 31 dekabr 2024 | 31 dekabr 2023 |
|---|---|---|
| Xarici təchizatçılar | 24,924 | 21,195 |
| Yerli təchizatçılar | 13,209 | 8,055 |
| **CƏMİ VERİLMİŞ AVANSLAR** | **38,133** | **29,250** |

# 11. Mal-materiallar

31 dekabr 2024 və 2023-cü il tarixlərinə mal-materialların açıqlaması aşağıdakı kimidir:

| | 31 dekabr 2024 | 31 dekabr 2023 |
|---|---|---|
| Mallar | 3,142 | 3,172 |
| Material ehtiyatları | 2,424 | 4,000 |
| **CƏMİ MAL-MATERİALLAR** | **5,566** | **7,172** |

## 12. Digər aktivlər

31 dekabr 2024 və 2023-cü il tarixlərinə digər aktivlərin açıqlaması aşağıdakı kimidir:

| | **31 dekabr 2024** | **31 dekabr 2023** |
|---|---|---|
| Vergi aktivləri | 24,095 | 10,223 |
| Sosial sığorta avansları | 5,584 | 3,300 |
| **CƏMİ DİGƏR AKTİVLƏR** | **29,679** | **13,523** |

# 13. Torpaq, tikili və avadanlıq

31 dekabr 2024 və 2023-cü il tarixlərində bitən illər üzrə torpaq, tikili və avadanlığın hərəkəti aşağıdakı kimidir:

| | Binalar və tikililər | Digər əsas vəsaitlər | Maşın və avadanlıqlar | Nəqliyyat vasitələri | İstifadəyə verilməmiş əsas vəsaitlər | CƏMİ |
|---|---|---|---|---|---|---|
| İlkin dəyər | | | | | | |
| **31 DEKABR 2022-Cİ İL TARİXİNƏ QALIQ** | **13,197** | **1,368** | **148,390** | **1,397** | **3,862** | **168,214** |
| Silinmələr | - | (10) | (62) | (56) | (12,942) | (13,070) |
| Alışlar | 140 | 137 | 5,789 | 484 | 17,341 | 23,891 |
| **31 DEKABR 2023-CÜ İL TARİXİNƏ QALIQ** | **13,337** | **1,495** | **154,117** | **1,825** | **8,261** | **179,035** |
| Alışlar | 1,996 | 5 | 15,366 | - | 5,607 | 22,974 |
| **31 DEKABR 2024-CÜ İL TARİXİNƏ QALIQ** | **15,333** | **1,500** | **169,483** | **1,825** | **13,868** | **202,009** |
| Yığılmış amortizasiya | | | | | | |
| **31 DEKABR 2022-Cİ İL TARİXİNƏ QALIQ** | **(4,417)** | **(931)** | **(139,740)** | **(988)** | **-** | **(146,076)** |
| Amortizasiya xərci | (590) | (96) | (7,891) | (161) | - | (8,738) |
| Silinmələr | - | 8 | 50 | 56 | - | 114 |
| **31 DEKABR 2023-CÜ İL TARİXİNƏ QALIQ** | **(5,007)** | **(1,019)** | **(147,581)** | **(1,093)** | **-** | **(154,700)** |
| Amortizasiya xərci | (587) | (315) | (8,081) | (249) | - | (9,232) |
| **31 DEKABR 2024-CÜ İL TARİXİNƏ QALIQ** | **(5,594)** | **(1,334)** | **(155,662)** | **(1,342)** | **-** | **(163,932)** |
| Xalis balans dəyəri | | | | | | |
| **31 DEKABR 2023-CÜ İL TARİXİNƏ QALIQ** | **8,330** | **476** | **6,536** | **732** | **8,261** | **24,335** |
| **31 DEKABR 2024-CÜ İL TARİXİNƏ QALIQ** | **9,739** | **166** | **13,821** | **483** | **13,868** | **38,077** |

# 14. Alınmış avanslar

31 dekabr 2024 və 2023-cü il tarixlərinə alınmış avansların açıqlaması aşağıdakı kimidir:

| | 31 dekabr 2024 | 31 dekabr 2023 |
|---|---|---|
| Dövlət qurumları və müəssisələri | 5,454 | 70 |
| Rabitə və internet provayderləri | 3,658 | 41 |
| Banklar | 423 | 3 |
| Digər hüquqi və fiziki şəxslər | 2,367 | 692 |
| **CƏMİ ALINMIŞ AVANSLAR** | **11,902** | **806** |

# 15. Kreditor borcları

31 dekabr 2024 və 2023-cü il tarixlərinə kreditor borclarının açıqlaması aşağıdakı kimidir:

| | 31 dekabr 2024 | 31 dekabr 2023 |
|---|---|---|
| Xarici təchizatçılar | 38,865 | 24,754 |
| Yerli təchizatçılar | 32,816 | 8,148 |
| **CƏMİ KREDİTOR BORCLARI** | **71,681** | **32,902** |

# 16. Digər öhdəliklər

31 dekabr 2024 və 2023-cü il tarixlərinə digər öhdəliklərin açıqlaması aşağıdakı kimidir:

| | 31 dekabr 2024 | 31 dekabr 2023 |
|---|---|---|
| Vergi öhdəlikləri | 10,660 | 7,609 |
| İşçi heyəti öhdəlikləri | 103 | 450 |
| **CƏMİ DİGƏR ÖHDƏLİKLƏR** | **10,763** | **8,059** |

# 17. Təahhüdlər və şərti öhdəliklər

***Əməliyyat mühiti***

Şirkət fəaliyyətinin böyük hissəsini Azərbaycanda həyata keçirir. Azərbaycan kimi inkişaf etməkdə olan ölkələr iqtisadi, siyasi, sosial və hüquqi risklər də daxil olmaqla

müxtəlif risklərə məruz qalır. Azərbaycanda biznesə təsir edən qanunlar və qaydalar sürətlə dəyişməkdə davam edir, vergi və tənzimləyici normativlər bəzi hallarda birmənalı şəkildə tətbiq edilmir. Azərbaycan iqtisadiyyatı xüsusilə neft və qaz qiymətlərinə həssasdır. Son illər ərzində Azərbaycan hökuməti daha tarazlaşdırılmış iqtisadiyyata keçidi sürətləndirmək və neft-qaz sektorundan asılılığı azaltmaq üçün geniş iqtisadi və sosial islahatları həyata keçirməkdədir.

Beynəlxalq kredit reytinq agentlikləri Azərbaycanın kredit reytinqini mütəmadi olaraq qiymətləndirirlər.

***Vergi öhdəlikləri***

Şirkət mənfəət vergisi daxil olmaqla müxtəlif vergilərin ödəyicisidir. Azərbaycanda vergitutma sistemi inkişaf etməkdədir və bəzən bir-birinə zidd olan və müxtəlif vergi orqanları tərəfindən fərqli şəkildə tətbiq edilən qanunlarla, rəsmi bəyanatlarla və məhkəmə qərarları ilə səciyyələnir. Vergilər ciddi sanksiyalar, cərimələr və faizlər tətbiq etmək səlahiyyətinə malik olan bir sıra orqanlar tərəfindən yoxlanıla bilər.

Vergi yoxlaması əvvəlki üç təqvim ili üzrə maliyyə dövrlərini təftiş edə bilər. Müəyyən şəraitdə belə yoxlamalar daha uzun müddətləri əhatə edə bilər.

Vergi üzrə öhdəliklərinin hesablanması əhəmiyyətli dərəcədə təxminlərə və mülahizələrə söykənir. Rəhbərlik hesab edir ki, o, tətbiq olunan Azərbaycan vergi qanunvericiliyi, rəsmi açıqlamalar və məhkəmə qərarlarına əsasən vergi öhdəliklərini adekvat şəkildə əks etdirib. Bununla belə, müvafiq orqanların yanaşması fərqli ola bilər və səlahiyyətli orqanlar öz yanaşmalarını tətbiq etməli olarsa, bu, maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir edə bilər.

***Kapital xərcləri üzrə öhdəliklər***

Kapital xərcləri üzrə öhdəliklər hesabat tarixindən sonra həyata keçiriləcək kapital layihələri üzrə ümumi yatırım məbləğini əks etdirir. 31 dekabr 2024 və 2023-cü il tarixlərinə bu maliyyə hesabatlarında açıqlanmalı kapital öhdəliyi olmamışdır.

***Məhkəmə işləri***

Vaxtaşırı və normal iş prosesində Şirkətin qarşı iddialar irəli sürülə bilər. Öz təxminlərinə və həm daxili, həm də kənar peşəkar məsləhətlərə əsasən, rəhbərlik bu maliyyə hesabatlarında nəzərdə tutulmuş ehtiyatlardan artıq olan iddialarla bağlı heç bir əhəmiyyətli itkilərin baş verməyəcəyi qənaətindədir.

# 18. Maliyyə risklərinin idarə edilməsi

Maliyyə risklərinin idarə edilməsi qeydi Şirkətin maliyyə risklərinə məruz qalmasını və bu risklərin Şirkətin gələcək maliyyə fəaliyyətinə necə təsir göstərə biləcəyini izah edir. Şirkət bazar riski, kredit riski və likvidlik riskinə məruz qalır. Şirkətin maliyyə departamenti bu riskləri rəhbərlik tərəfindən təsdiq edilmiş siyasətlər əsasında idarə edir. Maliyyə departamenti Şirkətin əməliyyat bölmələri ilə sıx əməkdaşlıq edərək maliyyə risklərini müəyyən edir, qiymətləndirir və onların idarə olunmasını həyata keçirir.

Şirkətin əsas maliyyə aktivlərinə pul və pul ekvivalentləri və debitor borcları daxildir. Şirkətin əsas maliyyə öhdəliklərinə kreditor borcları daxildir.

***Kredit riski***

Kredit riski, maliyyə itkisi ilə nəticələnən qarşı tərəfin maliyyə aləti və ya müştəri müqaviləsi üzrə öhdəliklərini yerinə yetirməməsi riskidi. Şirkət əməliyyat və maliyyələşdirmə fəaliyyətləri, o cümlədən pul və pul ekvivalentləri və debitor borcları üzrə kredit riskinə məruz qalır.

Müştəridən qaynaqlanan kredit riski müvafiq əməliyyatlara cavabdeh olan hər bir struktur bölməsi tərəfindən idarə olunur. Müştərinin ödəmə qabiliyyəti keçmiş təcrübə, maliyyə vəziyyəti və digər amillər əsasında qiymətləndirilir. Fərdi limitlər bu qiymətləndirməyə uyğun olaraq müəyyən edilir. Müştəri limitlərinə riayət olunmasına müvafiq rəhbərlik tərəfindən mütəmadi olaraq nəzarət edilir.

Gözlənilən kredit itkilərini ölçmək üçün ehtiyat matrisindən istifadə etməklə hər hesabat tarixində dəyərsizləşmə təhlili aparılır. Ehtiyat dərəcələri oxşar riskləri olan müxtəlif müştəri seqmentlərinin qruplaşdırılması üçün vaxtı keçmiş günlərə əsaslanır (məs., məhsul növü, müştəri növü və reytinqi, coğrafi bölgə və zəmanət növləri). Hesablama ehtimala əsaslanan nəticəni, pulun vaxt dəyərini və keçmiş hadisələr, cari şərtlər və gələcək iqtisadi şəraitin proqnozları haqqında hesabat tarixində mövcud olan məqsədə uyğun və əsaslandırıla bilən məlumatları əks etdirir.

31 dekabr 2024 və 2023-cü il tarixlərinə ehtiyat matrisindən istifadə etməklə Şirkətin debitor borcları üzrə kredit riskinə məruz qalması haqqında məlumatı aşağıdakı kimidir:

| | Cari | 30-90 gün | 90-180 gün | 180-365 gün | 1 ildən artıq | CƏMİ |
|---|---|---|---|---|---|---|
| Debitor borcları - əsas məbləğ | 52,907 | 9,219 | 12,996 | 8,021 | - | 83,143 |

| | Cari | 30-90 gün | 90-180 gün | 180-365 gün | 1 ildən artıq | CƏMİ |
|---|---|---|---|---|---|---|
| Debitor borcları - əsas məbləğ | 42,142 | 5,518 | 2,798 | 7,922 | - | 58,380 |

***Xarici valyuta riski***

Xarici valyuta riski, xarici valyuta məzənnələrindəki dəyişikliklər səbəbindən xalis valyuta mövqeyi üzrə ədalətli dəyərinin və ya gələcək pul hərəkətinin dəyişməsi riskidir. Şirkət xarici valyutada əməliyyatlar aparır və nəticədə məzənnə dəyişikliyi riskinə məruz qalır.

Hesabat dövrünün sonuna Şirkətin xarici valyuta riskinə məruz qalması aşağıdakı kimi olmuşdur:

| | EUR | GBP | RUB | SEK | USD | CƏMİ |
|---|---|---|---|---|---|---|
| Debitor borcları | 7,136 | - | - | - | 7,065 | 14,201 |
| Pul və pul ekvivalentləri | 3,678 | 4 | 5 | 7 | 26,207 | 29,901 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **10,814** | **4** | **5** | **7** | **33,272** | **44,102** |
| Kreditor borcları | (9,838) | (26) | (28) | (9) | (18,023) | (27,924) |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **(9,838)** | **(26)** | **(28)** | **(9)** | **(18,023)** | **(27,924)** |
| **XALİS MÖVQE 2024** | **976** | **(22)** | **(23)** | **(2)** | **15,249** | **16,178** |

| | EUR | GBP | RUB | SEK | USD | CƏMİ |
|---|---|---|---|---|---|---|
| Debitor borcları | 3,488 | - | - | - | 5,019 | 8,507 |
| Pul və pul ekvivalentləri | 2,022 | 4 | 3 | 5 | 16,861 | 18,895 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **5,510** | **4** | **3** | **5** | **21,880** | **27,402** |
| Kreditor borcları | (1,285) | - | - | - | (11,941) | (13,226) |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **(1,285)** | **-** | **-** | **-** | **(11,941)** | **(13,226)** |
| **XALİS MÖVQE 2023** | **4,225** | **4** | **3** | **5** | **9,939** | **14,176** |

Şirkətin xarici valyuta məzənnələrindəki dəyişikliklər riskinə məruz qalması ilk növbədə onun əməliyyat fəaliyyəti ilə bağlıdır.

***Likvidlik riski***

Likvidlik riski Şirkətin maliyyə öhdəliklərini yerinə yetirməkdə çətinlik çəkməsi riskidir. Şirkətin siyasəti likvidlik tələblərinə və borclanma şərtlərinə mütəmadi olaraq nəzarət etmək, qısa və uzun müddət ərzində öhdəlikləri ödəmək üçün kifayət qədər pul ehtiyatı saxlamasını təmin etməkdir.

Aşağıdakı cədvəllər Şirkətin müqavilələri üzrə ödəməli olduğu diskontlaşdırılmamış maliyyə öhdəliklərinin (faiz dərəcələrindən istifadə etməklə hesablanmış faiz ödənişləri daxil olmaqla) hesabat dövrünün sonuna Şirkətdən tələb edilə bilən ən erkən ödəmə müddətlərini göstərir:

| | 3 aya qədər | 3-12 ay | 1-5 il | 5 ildən artıq | CƏMİ |
|---|---|---|---|---|---|
| Kreditor borcları | 71,681 | - | - | - | 71,681 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ 2024** | **71,681** | **-** | **-** | **-** | **71,681** |

| | 3 aya qədər | 3-12 ay | 1-5 il | 5 ildən artıq | CƏMİ |
|---|---|---|---|---|---|
| Kreditor borcları | 32,902 | - | - | - | 32,902 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ 2023** | **32,902** | **-** | **-** | **-** | **32,902** |